İnformatika elminə dəyərli töhfə

Müasir dövrümüzdə elmi-texniki tərəqqinin insan fəaliyyətinin bütün sahələrinə təsirinin əsas amillərindən biri müasir kompyuter və rabitə texnikasına əsaslanan informasiya-kommunikasiya texnologiyalarıdır. Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya-kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. Təbii ki, İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə informatika elminə dərindən yiyələnməkdir.

İndiki zamanda hər bir mütəxəssisin peşə səviyyəsini göstərən cəhətlərdən biri kompyuter texnologiyaları haqqında ətraflı məlumata malik olmaq, onun tətbiq və imkanlarından nəinki informatika fənnində, hətta digər fənnlərin tədrisində də istifadə etməkdir. Məktəblərin kompyuterləşdirilməsi, gənclərin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnməsi üçün atılan məqsədyönlü addımlar ölkədə informasiya cəmiyyətinin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ölkə başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər)" mühüm sənəd kimi diqqəti cəlb edir. Ölkədə təhsilin keyfiyyətinin artırılmasına, milli təhsilin dünya təhsil sisteminə inteqrasiyasına imkan yaradan , əhalini informasiya cəmiyyətinin üzvlərinə çevirən bu proqram ötən illər ərzində uğurlu nəticələr vermişdir. "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012)"nda isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub.

Eyni zamanda istər bakalavr və magistr, istərsə də doktorantura və dissertantura pillələrinə qəbul proqramına informatika ixtisasının salınması müasir dövrdə bu sahənin nə qədər vacib və zəruri olduğunu bir daha vurğulayır. Bu baxımdan informatikanın tədris prosesində test tapşırıqlarından istifadə mühüm amil olmaqla yanaşı, ali təhsilin müxtəlif pillələrində təhsil almaq istəyənlər üçün testalogiya prinsiplərinə yiyələnməsinə uğurla xidmət edir.

Bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin müəllimi, dissertant Zahid Qənbərovun "İnformatika-2" test tapşırıqları vəsaiti də ali məktəb tələbələri, magistrantlar, müəllimlər və dövlət qulluğuna hazırlaşanlar üçün nəzərdə tutulmuşdur. Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşən Məmmədovun redaktorluğu və texniki elmlər üzrə fəlsəfə doktoru Cavanşir Zeynalovun və dosent Məftun İsmayılovun rəyləri ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatda işıq üzü görən vəsait TQDK-nın qəbul imtahanları proqramına uyğun hazırlanmışdır. Vəsaitdən istifadə edənlər təməl informatika biliklərini mökəmləndirməklə yanaşı, yeni forma və metodlarla da tanış olacaqlar.

Giriş və 8 bölmədən ibarət olan vəsaitdə mikrosoft vörd 2010 mətn prossesoru, microsoft excel 2010 cədvəl prossesoru, microsoft poverpoint 2010 elektron təqdimat proqramı, verilənlər bazası, microsoft access 2010 verilənlər bazasının idarəetmə sistemi, kompyuter qrafikasının əsasları, kompyuter şəbəkələri, internet qlobal şəbəkəsi və s. məsələlər barəsində geniş və əhatəli test tapşırıqları yer alıb ki, bu da informasiya texnologiyaları ilə bağlı anlayışları mənimsəmək və tətbiq etmək, informatikanın proqram mövzuları üzrə elmi diskussiyalar aparmaq bacarıqlarının inkişaf etirilməsinə xidmət edir. Nəfis tərtibatda ərsəyə gəlmiş "İnformatika-2" test tapşırıqları adlı dərs vəsaiti 8 bölməni əhatə edən 830 test nümunələrindən ibarətdir. Kitabın qısa müddətdə geniş oxucu kütləsi qazanacağına şübhə yoxdur.

✍ **Arzu Abdullayev,**
NDU-nun müəllimi, doktorant